# Bayatlar

Türk boylarından biri olan Bayat, öncələri Türküstan bozqırında yaşayırdı və buradan Monqolların saldırısı zamanı onlarla birlikdə gəlmişdi. Öncə Kiçik Asiyada yurd salmış və burada Səlcuqlarla qarışmışdı. Bir bölümü sonralar Anadolu Teymur tərəfindən tutulduqdan sonra Diyarbəkirə köçürülmüş və buradan da xeyli sürə sonra Bağdad bölgəsinə köçmüşdülər. Buradan İran şahları Səfəvilər XVIII yüzillikdə Bayatların bir bölümünü Qızılbaşlar adı ilə Mazandarana, Tehran və Xorasana köçürdülər. Ancaq Bayatların böyük hissəsi Anadoluda qalmış və buradan da müxtəlif vaxtlarda Azərbaycana köçmüşdü. Buraya isə İrandan Bayatlar köçürülmüş və Səfəvilər tərəfindən indiki Quba qəzasında ləzgiləri tabe etmək üçün və yerli hökmdarların güclənməsi üçün yerləşdirilmişdir. Bayatlar öz adlarını aşağıdakı obalara vermişlər:

Göyçay qəzasında — Bayat-Məlik Umud, Bayat-Nadir Hüseyin;

Cavad qəzasında — Bayat;

Quba qəzasında — Sincan Bayat; Uzun Bayat;

Şamaxı qəzasında — Bayat;

Şuşa qəzasında — Bayat.

---

**Məhəmmədhəsən bəy Vəlili-Baharlı — *“Azərbaycan” (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**